**Yeni enerji mənbəyi**

Dünyada alternativ enerji mənbələrinin axtarışı elmin və texnologiyaların diqqət mərkəzində olan ən aktual məsələlərdəndir və bu sahədə maraqlı tapıntılar da əldə edilməkdədir.

Son vaxtlar amerikalı alimlərin kəşfi sensasiyalı xəbər kimi dünya kütləvi informasiya vasitələrində xüsusi yer tutur. Onlar bahalı olmayan, lakin çox səmərəli nanogenerator hazırlayıblar. Bu generator vasitəsi ilə cüzi mexaniki hərəkət də enerji yaranmasına səbəb olacaq. Qurğunu Corciya Texnologiyalar İnstitutunun alimləri hazırlayıblar. Onlar hesab edirlər ki, bu generatorları tək mobil telefonlarda deyil, başqa sahələrdə də istifadə etmək mümkün olacaq. Belə ki, gəzərkən və ya hərəkət edərkən yaranmış enerji ilə implant orqanları və insana tələb olunan digər tibbi elektronikanı da təmin etmək mümkündür.

İnstitutun professoru Şonq Lin Vanq bu işin üzərində uzun müddət işləyib. Vanqın hazırladığı nanogenerator vasitəsi ilə mexaniki hərəkət 10%-dən 15%-ə qədər elektrik enerjisinə çevrilə bilir. Gələcəkdə cihazın faydalı iş əmsalını 40%-ə qədər çatdırmaq mümkün olacaq.